**DOI:** https://doi.org/10.59849/2957-3882.2025.2.169

# "BÖYÜK OYUN" VƏ İRAN. HERAT MÜHARİBƏSİ (1838-1841)

**Fərəh KƏRİMOVA**
*AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu*
*İran tarixi və iqtisadiyyatı şöbəsi*
*Kiçik elmi işçi*
*E-mail: m_fereh@mail.ru*
*ORCİD: https://orcid.org/0009-0005-8207-7785*

*Daxilolma tarixi: 31.10.2025*
*Düzəliş tarixi: 06.11.2025*
*Nəşrə təsdiq tarixi: 14.11.2025*

## XÜLASƏ

"Böyük Oyun" XIX əsrdə Britaniya və Rusiya imperiyaları arasında Mərkəzi Asiya, İran, Əfqanıstan uğrunda aparılan rəqabət idi. Məqalədə "Böyük Oyun" anlayışının mahiyyəti, tarixi, onun aparılma mexanizmləri, XIX əsrin birinci yarısında İranın "Böyük oyun"a cəlb edilməsi məsələləri araşdırılır.

Tədqiqatın mərkəzində 1838–1841-ci illər Herat müharibəsinin təhlili dayanır. Bu müharibə "Böyük Oyun" dövründə Britaniya və Rusiya maraqlarının ilk birbaşa toqquşması olmuşdur. Məqalədə Herat şəhərinin strateji əhəmiyyəti, münaqişənin tarixi və xronologiyası təqdim edilir, onun diplomatik və hərbi aspektləri təhlil olunur, İranın strateji maraqları və mövqeyi dəyərləndirilir, həmçinin Britaniya və Rusiyanın Herat hadisələrinə reaksiyası öyrənilir. Müəllif Herat müharibəsinin Qacar İranının xarici və daxili siyasətinə təsiri, London və Sankt-Peterburqun münaqişə ətrafında diplomatik manevrləri, eləcə də böyük dövlətlərin təzyiqi şəraitində Tehran hökumətinin mövqeyi araşdırılır.

İstifadə olunan mənbələr əsasında belə nəticəyə gəlinir ki, Herat müharibəsi Qacar İranının siyasətində dönüş nöqtəsi olmuş, onun Əfqanıstanda mövqeyinin zəifləməsinə, bunun əksinə, Britaniyanın Əfqanıstanda təsir dairəsinin möhkəmlənməsinə şərait yaratmış, bölgədə Britaniya və Rusiya təsir dairələrinin sərhədlərinin formalaşmasına mühüm təsir göstərmişdir.

Müəllif, həmçinin, Herat müharibəsi ilə eyni zaman kəsiyində baş vermiş İngilis–Əfqan müharibəsi və hər iki müharibənin siyasi, hərbi və geosiyasi nəticələri haqqında məlumat verir, müqayisəli təhlil aparır.

Sonda müəllif Herat müharibəsinin İran üçün nəticələri və XIX əsrin I yarısında "Böyük oyun"un ümumən bölgədə qüvvələr balansının dəyişməsinə təsirini konkret şəkildə təqdim edir.

***Açar sözlər:*** *"Böyük Oyun", Artur Kanolli, İran, Herat müharibəsi, Məhəmməd şah Qacar, Con Maknil.*

# «БОЛЬШАЯ ИГРА» И ИРАН. ГЕРАТСКАЯ ВОЙНА (1838–1841)

**Фарах КЕРИМОВА**
*Институт востоковедения имени акад. З.М. Буниятова*
*НАНА, Отдел истории и экономики Ирана*
*Младший научный сотрудник*
*E-mail: m_fereh@mail.ru*
*ORCID: https://orcid.org/0009-0005-8207-7785*

*Дата поступления: 31.10.2025*
*Дата исправления: 06.11.2025*
*Дата утверждения к публикации: 14.11.2025*

## АННОТАЦИЯ

«Великая игра» — это соперничество между Британской и Российской империями за Центральную Азию, Иран и Афганистан в XIX веке. В статье анализируется значение и исторический контекст понятия «Великая игра», исследуются механизмы её реализации, а также вопросы вовлечения Ирана в процессы «Великой игры» в первой половине XIX века.

В центре исследования находится анализ Гератской войны 1838–1841 годов. Эта война стала первым прямым столкновением интересов Британии и России в период «Великой игры». В статье рассматривается стратегическое значение города Герат, история и хронология конфликта, анализируются его дипломатические и военные аспекты, оцениваются стратегические интересы и позиция Ирана, а также изучается реакция Британии и России на события в Герате. Автор исследует влияние Гератской войны на внешнюю и внутреннюю политику Каджарского Ирана, дипломатические маневры Лондона и Санкт-Петербурга вокруг конфликта, а также позицию правительства Тегерана в условиях давления великих держав.

На основании используемых источников делается вывод, что Гератская война стала поворотным моментом в политике Каджарского Ирана, ослабив его позиции в Афганистане и одновременно способствуя укреплению британского влияния в этой стране, а также оказала значительное влияние на формирование границ зон влияния Британии и России в регионе.

Автор также представляет информацию о англо-афганской войне, произошедшей в тот же период, и о политических, военных и геополитических последствиях обеих войн, проводя сравнительный анализ.

В заключение автор конкретно представляет последствия Гератской войны для Ирана и влияние «Великой игры» в первой половине XIX века на изменение баланса сил в регионе.

***Ключевые слова**: «Большая игра», Артур Канолли, Иран, Мухаммед шах Каджар, Гератская война, Джон Макнил.*

# "THE GREAT GAME" AND IRAN: THE HERAT WAR (1838–1841)

**Farah KARIMOVA**
*Institute of Oriental Studies named after Z.M. Bunyadov, ANAS*
*Department of Iranian History and Economy*
*Junior Researcher*
*E-mail: m_fereh@mail.ru*
*ORCID: https://orcid.org/0009-0005-8207-7785*

*Date of submission: 31.10.2025*
*Date of revision: 06.11.2025*
*Date of acceptance for publication: 14.11.2025*

## ABSTRACT

The "Great Game" was the rivalry between the British and Russian Empires over Central Asia, Iran, and Afghanistan in the 19th century. This article analyzes the significance and historical context of the concept of the "Great Game," explores the mechanisms of its implementation, and examines Iran's involvement in the processes of the Great Game during the first half of the 19th century.

The focus of the study is the Herat War of 1838–1841, which became the first direct confrontation of British and Russian interests during the Great Game. The article explores the strategic significance of the city of Herat, the history and chronology of the conflict, and analyzes its diplomatic and military aspects. It also evaluates the strategic interests and position of Iran, as well as the reactions of Britain and Russia to the events in Herat. The author investigates the impact of the Herat War on both the foreign and domestic policies of Qajar Iran, the diplomatic maneuvers of London and St. Petersburg surrounding the conflict, and Tehran's position under the pressure of the great powers.

Based on the sources used, the study concludes that the Herat War became a turning point in the politics of Qajar Iran, weakening its position in Afghanistan while simultaneously contributing to the strengthening of British influence there. It also significantly affected the formation of spheres of influence of Britain and Russia in the region.

The article also presents information on the Anglo-Afghan War, which took place during the same period, and analyzes the political, military, and geopolitical consequences of both wars, providing a comparative analysis.

In conclusion, the article outlines the consequences of the Herat War for Iran and the influence of the Great Game in the first half of the 19th century on the regional balance of power.

***Keywords:*** *The Great Game, Arthur Canolli, Iran, The Herat War, Mohammad Shah Qajar, John MacNeill*

**Giriş**

"Böyük Oyun" – Böyük Britaniya və Çar Rusiyasının Mərkəzi və Cənubi Asiya, Hindistan, Əfqanıstan, İranda ağalıq uğrunda apardığı, əsasən XIX əsrin 30-cu illərindən başlayan, əsrin II yarısında pik həddinə çatan geosiyasi rəqabət idi. İngilislərin "The Great Game" adlandırdığı bu termin ilk dəfə "Ost Hind" şirkətinin nümayəndəsi, "Böyük oyunun atası" hesab edilən, ingilis kəşfiyyatçı zabiti, elə kəşfiyyat səfərlərinin birində də - 1842-ci ildə buxaralılar tərəfindən əsir götürülərək, edam edilən Artur Konolli tərəfindən 1840-cı ildə Ost-Hind şirkətinin Qəndəhardakı siyasi agenti Henri Raulinsona göndərilən məktubda istifadə edilib. Bu ifadə geniş elmi-publisistik dövriyyəyə isə Redyard Kipling tərəfindən "Kim" (1901) romanının nəşrindən sonra daxil olmuşdur. Adı çəkilən romanda vaxtilə vəfat etmiş irlandiyalı hərbçinin oğlu, Hindistanda yaşayan və əfqanıstanlı tacir Məhbub Əlinin xidmətçisi olan, əslində isə ingilislər üçün kəşfiyyat fəaliyyəti ilə məşğul olan Kim O'hara adlı oğlan təsadüfən xidmətçisi olduğu əfqan tacirin də Britaniya xüsusi xidmət orqanları ilə əməkdaşlıq etdiyini öyrənir və məhz ondan da Böyük Britaniya və Rusiyanın Asiya torpaqlarına sahiblənmək uğrunda "böyük oyun"a girişdiyi haqqında məlumat alır; özü də bundan sonra baş verəcək hadisələrin mərkəzində yer alır. Akademik səviyyədə isə termindən ilk dəfə H.Davis tərəfindən 10 noyabr 1926-cı ildə "Asiyada Böyük Oyun (1800–1844)" adlı təqdimatda istifadə edilmişdir.

XIX əsrin I yarısı beynəlxalq münasibətlər tarixində mühüm dövrdür. Bu dövr İngiltərə, Rusiya və Fransa kimi böyük dövlətlər arasında hegemonluq, yeni-yeni ərazilər və nüfuz dairələri əldə etmək uğrunda geniş, fəal geosiyasi rəqabətlə müşahidə olunur və bu rəqabətin əsas obyekti Yaxın və Orta Şərq regionu idi. "1784-cü ildən sonra Böyük Britaniya eyni zamanda həm Britaniya, həm də Britaniya Hindistanı olaraq böyük güc idi; o həm güclü Avropa, həm də güclü Asiya dövləti olmalı idi. Avropa və Asiya Britaniyası arasında bağlantı nöqtəsi kimi ən mühüm region isə Yaxın Şərq idi (İnqram E., 1979, s.5).

Bu dövlətlərin xarici siyasət xəttinin mühüm istiqamətlərindən biri də Hindistan məsələsi idi. Belə ki, bu dövrdə İngiltərənin əsas diqqəti "imperiyanın incisi" Hindistanı bütün mümkün təhdidlərdən qorumaq və özünün Hindistandakı qeyri-birbaşa, "kövrək" hakimiyyətini möhkəmləndirməyə yönəlmişdi. "Dənizlərin ağası" İngiltərə özünəqədərki təcrübələrə əsaslanaraq Hindistana qarşı təhdidlərin dənizlərdən deyil, məhz qurudan gəldiyini yaxşı anlayırdı. Bəhs edilən dövrdə belə təhdidlərdən biri Fransa imperatoru Napoleon Bonapart tərəfindən (1799-1815) idi. Belə ki, bu dövrdə Napoleonun xarici siyasətinin əsas istiqamətlərindən biri Fransaya qarşı yaradılan koalisiyaların əsas təşkilatçı və iştirakçısı olan İngiltərəyə qarşı mübarizə və Hindistanın ondan qoparılması idi. Lakin artıq XIX əsrin ikinci onilliyində İngiltərə Fransanı Hindistandan və ümümiyyətlə, Yaxın və Orta Şərq regionundan uzaqlaşdırmağa nail olmuş, əsas üstünlük İngiltərəyə keçmişdi.

XIX əsrin 20-ci illərinin ortalarından başlayaraq İngiltərənin "sənaye emalatxanası"na çevrilməsi, fabrik-zavod sənayesinin inkişafı, onun əmtəə bazarı axtarışlarını sürətləndirdi. Burjuaziyanın maraqlarının təmin edilməsi, pambıq və ipək sənayesi məhsulları üçün satış bazarları axtarışında olan İngiltərə üçün Hindistan və Hindistana qonşu ölkələrin əhəmiyyətini daha da artırmışdı. Odur ki, Şərq bazarlarına yiyələnmək, Mərkəzi Asiyada yeni müdafiə məntəqələri yaratmaq üçün yeni layihələr hazırlanırdı. Xüsusilə 1836-cı il iqtisadi böhranı (tələbatdan artıq məhsul istehsalı ilə bağlı yaranmışdı) ingilis burjuaziyasını daha fəal tədbirlər görməyə vadar etdi ki, bununla İngiltərənin Şərq siyasətində yeni dövr başladı.

XIX əsrin əvvəlləri Rusiya imperiyasının ekspansionist xarici siyasətində ən "parlaq, mənfəətli" dövrlərdəndir. Belə ki, 1828-ci ildə artıq Cənubi Qafqazın işğalını başa çatdırdıqdan sonra çar hökumətinin xarici siyasət strategiyasında əsas hədəf cənuba doğru irəliləmək, Hind okeanı sahillərinə çıxış əldə etmək və eləcə də Orta Asiyada yeni ərazilərə yiyələnmək idi. Bu yolda Rusiyanın qarşısında əsas maneə Britaniya imperiyası idi.

Beləliklə, "Böyük oyun" - Böyük Britaniya və Rusiya imperiyalarının böyük miqyaslı siyasi-strateji ambisiyaları və onları reallaşdırmaq üçün əl atdıqları diplomatik-siyasi oyunlar, hərbi ekspedisiyalar, kəşfiyyat-casus fəaliyyəti şəklində həyata keçirilən geosiyasi rəqabət idi. E.İnqramın təbirincə, "Şərq məsələsi - Britaniya Türkiyə məsələsində necə hərəkət etməlidir?" və "Böyük oyun"-

Britaniya Hindistanı necə müdafiə etməlidir?" məsələləri XIX əsrdə İngiltərə xarici siyasətinin əsas diplomatik pazlları idi (İnqram E., 1979, s.328).

Xronoloji baxımdan "Böyük oyun"un başlanğıcını elə I Rusiya-İran müharibəsindən hesab etmək olar: P.Hopkirk bu haqda yazır: "Hər şey XIX əsrin ilk illərində, rus qoşunlarının Qafqazdan cənuba - şimali İrana doğru irəlilədiyi zaman başladı. Əvvəlcə, Rusiyanın bu hərəkətliliyi Britaniya maraqları üçün heç bir ciddi təhlükə yaratmırdı. Düzdür, Böyük Yekaterinanın (1762-1796) Hindistana yürüş etmək ideyası olmuşdu, 1801-ci ildə oğlu Pavel də həmin istiqamətə işğalçı qüvvələr göndərmişdi, lakin qısa müddət sonra sonuncunun ölümündən sonra bütün bunlar unudulmuşdu. Nədənsə o günlərdə heç kim rusları o qədər də ciddi qəbul etmirdi, çünki düşünülürdü ki, onların ən yaxın sərhəd məntəqələri Şərqi Hindistan Şirkətinin (Ost-Hind) mülklərinə real təhlükə yaratmaq üçün çox uzaqdadır. Lakin sonra - 1807-ci ildə Londona müəyyən kəşfiyyat məlumatları çatdı ki, bu da həm Britaniya hökumətini, həm də şirkət direktorlarını ciddi şəkildə narahat edəcəkdi. Özünün Avropadakı parlaq qələbələrindən cəsarətlənən Napoleon Bonapart Pavelin oğlu Aleksandrı Hindistan üzərinə yürüş etməyə, sonuncunu işğal edərək, öz aralarında bölüşdürməyə cəsarətləndirmişdi. Rus kazakları və 50000-lik fransız qoşunu İran və Əfqanıstandan keçərək, Hindistana yaxınlaşmış, amma bu yürüş uğursuz nəticələnmişdi. Rusiya-Fransa münasibətlərinin pozulması və Napoleonun Rusiya yürüşü Hindistanı unutdursa da, sonradan Napoleonun məğlub edilərək, sürgün edilməsi və bundan sonra Rusiyanın ön plana çıxaraq, nüfuzunun güclənməsi ilə Hindistana qarşı yeni təhlükələr yaranmağa başladı (Hopkirk P., 1990, s.3-5).

Amerikalı tarixçı Devid Fromkin "Asiyada Böyük oyun" adlı məqaləsində yazır: 1820-ci illərin sonunda Rusiya Osmanlı və İran imperiyalarından mühüm əhəmiyyətli əraziləri zəbt edəndə və cənub-şərqə doğru ekspansiyanı genişləndirəndə artıq Britaniyalı nazirlər Hindistan üçün real təhlükəni görməyə başladılar. 1829-cu ildə Britaniya Baş naziri Vellinqton Hindistan general-qubernatoru ilə yazışmasında Rusiyanın Hindistan üzərinə yürüş edəcəyi təqdirdə mümkün hərəkət xəttini təsvir edir və bu xəttin İran və Əfqanıstandan keçdiyini göstərirdi; "məhz bu vaxtdan etibarən ingilislər artıq Rusiyanın Asiyada istənilən addımını Hindistana qarşı real təhlükə kimi qiymətləndirməyə başladılar" (Fromkin D., 1980, s.936).

1830-cu ildən İngiltərə xarici siyasət idarəsinə rəhbərlik edən Lord Palmerston isə özünəməxsus siyasət xətti seçdi – Britaniyanın nə əbədi dostu, nə də əbədi düşməni olmalıdır; o, Rusiyaya qarşı çıxış etmək üçün Osmanlının və Asiyanın İslam inanclı xanlıqlarının bütövlüyünü vacib şərt hesab edirdi (Fromkin D., 1980, s.936-938). Burda bir maraqlı faktı da qeyd etmək yerinə düşərdi ki, A.Konolli H. Raulinsona artıq məqalənin əvvəlində haqqında bəhs edilən məktubunda yazdığı "Sizi qarşıda böyük oyun gözləyir, nəcib bir oyun" – cümləsi ilə də "özlərinin çiçəklənməsi və İngiltərənin şərəfi naminə" Mərkəzi Asiya xanlıqlarını himayə etmək, "İranın əlini sıxmaq" siyasət xəttinə işarə edilirdi (Meyer K.E., Shareen B.B., 1999 , s.23).

D. Fromkin fikirlərini belə ümumiləşdirir: əgər ingilislər XIX əsrin ortalarına kimi rusları dayandıra bilməsə idilər, o zaman Rusiya ilə böyük müharibəyə başlamaq üçün bir sıra səbəbləri olacaqdı: Rusiyanın öz ərazisini genişləndirməsi onu həddən artıq qüdrətləndirərək, güclər balansını pozacaqdı; bundan sonra Rusiya gec-tez Hindistana müdaxilə edəcəkdi; əgər o, uğur qazansa idi, bu Hindistandakı anti-müstəmləkəçi elementləri üsyana təşviq edəcəkdi, bu da öz növbəsində Mərkəzi Asiyanın köhnə İslam rejimlərini sarsıdacaq və qənimət payları uğrunda güclər arasında qızğın müharibəyə səbəb olacaqdı; bu, Rusiya çar rejiminə güc və nüfuz qazandıracaqdı; bütün bunlar Britaniyanın Asiya ilə qurduğu ənənəvi iqtisadi-ticarət sistemini poza bilərdi; Rusiyanın Hind okeanı sahillərinə çatması Britaniya imperiyasının əsas gücü olan dəniz kommunikasiyalarını təhdid altına ala bilərdi (Fromkin D., 1980, s.939).

## İran "Böyük oyun"da. XIX əsrin əvvəllərində İran-İngiltərə və İran-Rusiya münasibətləri

Strateji nöqteyi-nəzərdən Böyük Britaniya və Rusiyanın geosiyasi ambisiyaları arasında bufer zona olan İran "Boyük oyun"un episentrində yerləşirdi. "Rusiyaya hücum etmək, onun

ekspansionizmini durdurmaq üçün ən yaxşı yer Qara dəniz və "Avropa və Hindistan siyasi sistemləri arasında bufer zona - İran" idi (İnqram E., 1979, s.328).

Bir tərəfdən Hindistana gedən yolda "qapı" rolunu oynayan, digər tərəfdən də Avropa sənaye məhsulları üçün mühüm satış bazarı olan İran bütün XIX əsr boyu beynəlxalq münasibətlərin subyekti olmuşdur. XIX əsrin əvvəllərində çar Rusiyası ilə apardığı müharibələrdə məğlub olaraq nüfuz və böyük ərazi itkilərinə məruz qalmış Qacar İranının xarici siyasətinin əsas istiqamətini Rusiya və İngiltərə arasında diplomatik manevr etməklə siyasi vəziyyəti öz xeyrinə dəyişmək, itirdiklərini geri qaytarmaq məsələsi təşkil edirdi.

XIX əsrin əvvəllərində İranda ağalıq uğrunda aparılan geosiyasi mübarizənin əsas subyektləri İngiltərə və Rusiya imperiyaları idi. 1813-cü ildə Gülüstan və 1828-ci ildə Türkmənçay müqavilələrinin imzalanması ilə İranla apardığı müharibələri qalib olaraq bitirən Rusiya həm strateji və siyasi əhəmiyyəti böyük olan əlverişli ərazilərə yiyələnmiş, həm də İranın şimal əyalətlərinin simasında ingilis sənaye məhsulları ilə rəqabətə davamlı rus malları üçün yeni satış bazarı açılmışdı.

XIX əsrin I yarısı İngiltərə-İran münasibətlərinin aktiv dövrlərindəndir. Əsrin əvvəllərində iki ölkənin siyasi münasibətləri İngiltərənin Avropadakı böyük rəqibi Fransa ilə toqquşan maraqları fonunda tənzimlənirdi. İki Avropa ölkəsi İranda nüfuz qazanmaq, ölkəni öz dominionuna çevirmək uğrunda bir-birilə mübarizə aparır, məqsədlərinə çatmaq üçün müxtəlif siyasi, diplomatik yollara əl atırdılar. "Britaniya hökuməti İranı Rusiya ilə siyasi münaqişə meydanlarından biri hesab edirdi və Türkmənçay müqaviləsindən sonra rəqibi ilə bərabər imtiyazlar əldə etmək üçün dişlərini itiləyib gözləyirdi (Simnani M.Ə., 1941, s.211). İngiltərə hökuməti Fətəli şahdan sonra nəvəsi Məhəmməd şahın (Abbas Mirzənin oğlu) taxta çıxması münasibətilə təbriklərini çatdırmaq üçün elçisi Henri Ellisi Tehrana göndərdi. O, şah sarayında təmtəraqla qarşılandı ki, bu məsələ İngiltərə-İran münasibətlərində mühüm hadisə oldu (Markom K., 2018, s.120). Artur Konolli yazırdı ki, biz İranda Fransa təsirini aradan qaldırdıqdan sonra ingilis əsgərləri İran bayrağı altında ruslara qarşı vuruşdular. Napoleonun imperiyasının süqutundan sonra Britaniya və İran nazirləri dostcasına münasibət qurdular (Konolli A., 1838, II cild, s.346).

Bu dövr Rusiya - İran diplomatik münasibətləri tarixində ən çətin dövrlərdəndir. 1828-ci ildə Türkmənçay müqaviləsinin imzalanması ilə iki ölkə arasında müharibə bitsə də münasibətlər gərgin olaraq qalırdı. Xüsusilə 1828-ci ildə iki ölkə arasında münasibətləri qaydasına salmaq, Rusiya-Türkiyə müharibəsində İranın neytrallığına nail olmaq, bütün mübahisəli sərhəd məsələlərini həll etmək, eləcə də "ingilislərlə yaxşı münasibətlər qurmaq" məqsədilə (Kuznetsova N.A., 1983, s.60) İrana göndərilmiş rus elçi heyətinin başçısı A.Qriboyedovun 1829-cu ildə Tehranda öldürülməsindən sonra (rus səfirliyinin I katibi İ.Maltsev istisna olmaqla missiyanın bütün üzvləri də daxil) iki ölkənin münasibətləri yenidən müharibə həddinə çatmışdı. Bir çox iranlı müəlliflər Qriboyedovun öldürülməsini ruslarla qacarlar arasında münasibətləri pozmaq, "İranın daxilində yatmış fitnələri də oyadıb, onun öz ərazisində və ərazisindən kənarda təsir və nüfuzunda olan hər şeyi mənimsəmək" (Mahmud M.,1934, s.302-303), ruslarla iranlıların ittifaqına yol verməmək məqsədilə "ingilis müstəmləkəçilərinin öz iranlı agentlərinin köməyi ilə həyata keçirdiyi sui-qəsd aktı" olduğu fikrinə əsaslanırlar (Simnani M.Ə., 1982, s.177-181). Naibüssəltənə Abbas Mirzə Qacar üzrxahlıq etmək məqsədilə oğlu Xosrov Mirzə və Əmir-kəbir Mirzə Tağı xan Fərəhaninin başçılığı altında nümayəndə heyətini Peterburqa göndərdi. Həmin dövrdə Rusiya Osmanlı dövləti ilə də müharibə apardığından İranla yeni müharibəyə başlamaq iqtidarında deyildi. Odur ki, üzrxahlıq qəbul edildi və münasibətlər qaydaya salındı (Nəcmi N., 1993, s.118-120).

**İranın Heratla bağlı planları. XIX əsrin əvvəllərində Əfqanıstanda siyasi vəziyyət**

Ruslarla münasibətləri normallaşdıran Abbas Mirzə üçün növbəti hədəf Herat idi. Herat Əfqanıstanın qərbində, Böyük İpək yolunun üzərində yerləşən mühüm ticari və hərbi mərkəz olmaqla, Qacar İranı üçün mühüm strateji əhəmiyyət kəsb edirdi. Herat yolları Hindistandan Hindquş dağ silsiləsi ilə qərbə - İranın Xəzər sahili ərazilərinə və Orta Asiyada Xivə və Buxara xanlıqlarına qədər uzanırdı. "Herat Fars körfəzi və Xəzər dənizi, qərbdə və şimalda Yaksart çayı (Sırdərya) və

şərqdə Hind çayı arasındakı ərazidə elə bir mühüm məntəqə idi ki, ona sahib olan dövlət Türküstan və İran üzərində ağalıq edə bilərdi. Heratın sahibi olan hakim mərkəzi mövqedə duraraq, bütün istiqamətlərdə rahatlıqla və uğur qazanmaq şansı yüksək olmaqla Türküstan və İran şəhərlərinə çıxış edə bilərdi" (Kuznetsova N.A., 1983, s.72).

Heratın fəthi İran üçün Cənubi Qafqazda itirdiklərinin kompensasiyası olmalı, hələ də feodal ara müharibələrindən qurtulmamış Əfqanıstanın siyasi birləşməsinin qarşısını almalı, üsyankar Xorasan xanlarını Herat hökmdarlarının dəstəyini almaq imkanından məhrum etməli idi (Mahmud M., 1934, s.184). İran hökumətinin əlində bəhanə olan bir məsələ də əfqanların iranlıları tez-tez əsir götürərək, Türküstan bazarlarında satması, bir tərəfdən də Qacar hakimiyyətinə qarşı çıxan Kirman hökmdarı Hülakü xanın Kirmanın fəthindən sonra Herata qaçması və oradan İranın müxtəlif ərazilərində Qacarlara qarşı üsyan və iğtişaşlar təşkil etməsi idi (Mahmud M., 1934, s.349).

Qacar İranının Heratla bağlı xüsusi iddiaları vardı. İran şahları Heratı İranın tarixi ərazisi olaraq qəbul edirdi. Hələ 1722-ci ildə əfqan əmiri Mahmud Xotaki Səfəvilərə qarşı qiyam qaldırmış və İsfahanı ələ keçirmişdi (Amanat A., 2017, s.161-164). Maraqlı məqam odur ki, bu hadisə İran tarixində xarici təcavüz kimi qiymətləndirilir və Xotakilər digər Səfəvi, Əfşar, Zənd və Qacar tayfaları kimi "iranlı" hesab edilmir. Əslində Səfəvilərin hakimiyyət dövrünün əvvəllərindən etibarən ta Mahmud xan Xotakinin üsyanınadək (şah Sultan Hüseyn Səfəvinin (1694-1722) dövrü) Əfqanıstanın yalnız qərb hissələri İran hakimiyyətindən asılı olub. Nadir şah imperiyasının yaranmasından sonra isə bütün Əfqanıstan və Hindistan onun tərkibinə daxil edildi. Nadir şahın ölümündən və imperiyasının parçalanmasından sonra Dürranilər (1747-1823) və Bərakzaylar sülalələri (1826-1973) dövründə Əfqanıstan müstəqil şəkildə idarə olunmuşdur.

XIX əsrin ilk rübündə Əfqanıstanda hakimiyyətdaxili çəkişmələr hökm sürürdü. Rusiya ilə birinci müharibəni bitirən qacarlar Əfqanıstandakı qeyri-sabitlikdən istifadə edərək, Herat xanlığını tabe etmək üçün fürsət gözləyirdilər. 1816-cı ildə Herat xanı Firuz Mirzə üzərinə qoşun göndərilmiş, Qurian qalası ələ keçirilmiş, Firuz Mirzə məğlub olaraq, təslim olmağa və sülh bağlamağa, Qurian qalasının Qacarlara verilməsi haqqında fətva verməyə və 50 min tümən məbləğində təzminat ödəməyə, habelə Fətəli şahın adına sikkə kəsdirməyə məcbur edilmişdi (Nəfisi S., 2005, s.681). 1818-ci ildə Fətəli şahın Xorasan bəylərbəyi olan oğlu Məhəmməd Əli Mirzə Qafar Qala yaxınlığındakı döyüşdə əfqanları məğlubiyyətə uğratdı. Tezliklə artıq Herat xanlığının tamamilə qacarların nəzarətinə keçəcəyindən narahat olan Firuz Mirzə İrandan vassal asılılığına son qoymaq üçün Əfqanıstan əmiri Mahmud xan Dürraniyə müraciət etdi. Lakin Mahmud xanın özünün də siyasi dayaqları möhkəm deyildi və ölkədə Fəth xan Bərakzayın mövqeyi güclənmişdi. Sonuncu I Rus-Qacar müharibəsi dövründə qacarların başının ruslarla müharibəyə qarışmasından istifadə edərək, qiyam qaldırmış və İran asılılığından çıxmışdı. Fəth xanın siyasi ambisiyalarından narahat olan Mahmud xan Fəth xanı İranla işbirliyində və "Heratın müdafiəsini təşkil edə bilməməkdə" ittiham edərək, şəhəri ələ keçirdi. Tezliklə Mahmud xan Dürraninin oğlu Kamran Mirzə Fəth xan Bərakzayı Herat taxtından uzaqlaşdırdı. Bundan sonra İranla münasibətləri və Heratın statusu məsələsini diplomatik yolla qaydasına qoymağa çalışan Kamran Mirzə Fətəli şaha yazdığı məktubda Fəth xanın Mahmud xanın razılığını almadan öz şəxsi təşəbbüsü ilə qacarlarla qarşı çıxdığını bildirərək, yeni sülh müqaviləsi imzalamağa və İrandan asılılığı qəbul etməyə hazır olduğunu bildirdi. Fətəli şahın oğlu Həsənəli Mirzənin başçılığı ilə Fəth xana qarşı göndərilmiş qoşun baş vermiş döyüşdə sonuncunu məğlub edərək, əsir götürdü və şah sarayına göndərdi (burda onun gözləri çıxarıldı) (Kavə F., 2011, s.200).

Fəth xanın İrana təhvil verilməsi Əfqanıstanda Bərakzayların Mahmud xana qarşı qiyam qaldırması və onun hakimiyyətdən uzaqlaşdırması ilə nəticələndi; artıq 1823-cü ildə Bərakzaylar Əfqanıstanda hakimiyyəti ələ aldılar.

1826-cı ildən başlayaraq Qabul hakimi Dost Məhəmməd xan Əfqanıstanın birləşdirilməsi uğrunda mübarizəyə başladı ki, bu, qacarların Heratla bağlı planlarını reallaşdırmasına imkan vermirdi. Yalnız 1828-ci ildə Türkmənçay müqaviləsinin bağlanması və ruslarla müharibənin bitməsindən sonra Abbas Mirzə yenidən Herat məsələsini gündəmə gətirdi. Bu dövrdə Qabul, Qəznə

və Kohistanda Dost Məhəmməd xan, Qəndəharda qardaşları Kohəndil və Rəmdil xan hakimiyyəti ələ almışdı, Heratda isə Bərakzaylarla rəqabət aparan Kamran Mirzə ağalıq edirdi.

Abbas Mirzə tezliklə hərbi əməliyyatlara başladı, Türbət, Quçan, Turşiz, Əmirabad, Səraxz kimi əfqan şəhərlərini ələ keçirdi. 1831-1832-ci illərin hərbi kampaniyaları nəticəsində Rus-Qacar müharibələri dövründə mərkəzi hakimiyyətə qarşı çıxan bir sıra Xorasan şəhər və qalaları da mərkəzi hakimiyyətə tabe etdirildi. Herat üzərinə yürüş üçün hazırlıqlar başlandı. Abbas Mirzə Fətəli şahın yürüşə dair razılığını və maliyyə dəstəyini almaq üçün Tehrana getdi. Səhhətində ciddi problem olan Abbas Mirzənin geri qayıdarkən Məşhəd yolunda vəziyyəti pisləşdi və oğlu Məhəmmədəli Mirzəni yanına çağıraraq, Herat üzərinə yürümək və şəhəri mühasirəyə almaq haqqında göstəriş verdi. Onun göstərişi yerinə yetirildi - Herat üzərinə yürüş təşkil edildi. Lakin bu dəfə də Herat səfəri uğursuzluqla nəticələndi. Belə ki, Abbas Mirzənin 1833-cü ilin oktyabrında dünyasını dəyişməsi xəbərini alan qoşun hissələri mühasirəni yarımçıq saxlayıb geri döndülər, Məhəmməd Mirzə Məşhədə dönməyə məcbur oldu. Bundan sonra Herat hakimi Kamran Mirzə ilə Məhəmməd Mirzə arasında razılaşma əldə olundu. Bu razılaşmaya görə Kamran Mirzə Qurian qalasını qacarlara təhvil verməyə, bəzi iranlı əsirləri geri qaytarmağa və illik xərac ödəməyə, həmçinin əfqan və digər tayfaların mərkəzdənqaçma meyllərinin qarşısını almağa dair öhdəlik götürdü (Konolli A., 1834, II cild, s.279-292).

XIX əsrin 30-cu illərinin II yarısında İran-Əfqanıstan münasibətlərində yeni mərhələ başladı ki, bu mərhələ İranın Herat şəhərini ələ keçirmək üçün yeni manevrləri və Rusiya və İngiltərə kimi kənar güclərin də bir-birilə apardıqları geosiyasi rəqabət fonunda qacar-əfqan münasibətlərinə aktiv müdaxiləsi ilə xarakterizə olunur.

Herat qalası Hindistana gedən yolda "açar" rolunu oynamaqla, həm də Britaniya üçün strateji əhəmiyyət kəsb edirdi və onun "Böyük oyun"da Rusiyaya qarşı istifadə edə biləcəyi mühüm bufer zona idi.

Çar Rusiyası da İngiltərəyə qarşı apardığı rəqabətdə Herata böyük önəm verirdi. Herat məsələsinə münasibətdə İranı müttəfiq olaraq görən Rusiya, ingilislərin Heratda möhkəmlənərək, Rusiyanın cənub sərhədlərini ələ keçirmək üçün əlverişli hərbi-siyasi və coğrafi mövqeyə yiyələnməsinə imkan verməmək və onun Orta Asiyaya doğru irəliləyişinin qarşısını almaq məqsədilə Heratda Qacarların hakimiyyətinin bərqərar edilməsi istiqamətində bütün diplomatik vasitələrdən istifadə edirdi. Herat məsələsində iki tərəfin maraqları kəsişirdi: İran Heratla bağlı olanlarını gerçəkləşdirmək üçün Rusiyaya, Rusiya da Mərkəzi Asiyada öz təsir dairəsini genişləndirmək və Britaniya ekspansiyasına qarşı durmaq üçün İrana ehtiyac duyurdu.

Bir çox iranlı müəlliflər Fətəli şahı əfqanlarla müharibəyə rusların təhrik etdiyini iddia edirlər. K.Markom yazır ki, ruslar əfqanlarla müharibənin İrana itki, məğlubiyyət və zərərdən başqa nə isə verməyəcəyini və öz şimal qonşusundan asılı hala salacağını, bu müharibənin İngiltərə ilə də münasibətləri gərginləşdirəcəyini və İranı zəif salacağını bilə-bilə şahı müharibəyə sövq edirdilər (Markom K., 2018, s.121). «Əfqan monarxiyasını devirmək fikri Məhəmməd şahı həmişə düşündürürdü və o, bu barədə açıq danışırdı. Ona bu addımı atmaq üçün sadəcə cüzi stimul lazım idi. Ruslar da onu təhrik etməyə hazır idilər və şahın qulağını doldururdular. Onlar, həm öz məqsədləri üçün İranın diqqətini Zaqafqaziyadan yayındırmaq, İran torpaqlarına yiyələnmək və bunun müqabilində Asiyada bəzi torpaqları (əfqan torpaqlarını-F.K.) ona güzəştə getməyə hazır idilər" (Mahmud M.Ə., 1982, s.182-183).

İngilis müəllifi C.V.Kay isə bu haqda yazır: "ağlı başında olan adam Məhəmməd şahı Heratı ələ keçirməyə həvəsləndirənlərin rus diplomatları olduğu, Heratın mühasirəsini isə rus hökumətinin hərbi zabitlərinin təşkil etməsi xəbərinin doğruluğuna şübhə etməz. Bütün bunlar Rusiya hökumətinin çoxdankı məqsədlərini həyata keçirmək üçündür və Britaniya hökumətinin Hindistandakı mövcudluğuna qarşı yönəlmişdir" (Kaye C.V., I cild, 1851, s.294).

Əfqanıstanın özündə isə Britaniyaya münasibət düşmənçilik xarakterli idi. Əfqan hakimi Dost Məhəmməd xan çar Rusiyası və İranın köməyinə arxalanaraq, ingilislərə qarşı çıxmağı planlaşdırırdı. Bu məqsədlə Tehran və Peterburqa əfqan elçiləri göndərildi. Rusiyada əfqan elçilərini müşayiət edən İ.Vitkeviçə ingilislərə qarşı durmaq üçün "bir-birinə düşmən münasibətdə olan əfqan əmirləri Dost

Məhəmməd və Kohəndil xanı (Qəndəhar hakimi) barışdırmaq və onların qacarların himayəsini almasına nail olmaq", "Rusiyanın əfqan əmirlərinə aradakı böyük məsafədən dolayı birbaşa yardım edə bilməyəcəyi, lakin İran vasitəsilə dostluq köməyi göstərəcəyi" mesajını vermək tapşırılmışdı (Bulatov B.B., Salixova D.B., 2006, s.6).

1836-cı ildə qacarlar Herat üzərinə yürüşə başlayaraq, şəhəri mühasirəyə aldı. Məhəmməd şah, ilk növbədə türkmən tayfalarının arxadan zərbə vurmasının qarşısını almaq məqsədilə Qorqana hücum edərək, qalanı tabe etməyə cəhd göstərsə də, bu İran qoşunlarının məğlubiyyəti ilə nəticələndi. Bu məğlubiyyət Fətəli şahı geri çəkilməyə və yeni yürüş üçün hazırlıqlar görməyə məcbur etdi.

**Herat müharibəsi. Rusiya və İngiltərənin mövqeyi**

Nəhayət, bütün hazırlıqlar başa çatdırıldıqdan sonra 1837-ci ildə Məhəmməd şah Qacar Herat üzərinə yeni yürüşə başladı. Ruslarla birgə hərəkət edən İran qoşunu şəhəri mühasirəyə aldı. Şəhərin mühasirəsinə də rus zabitləri Perovski və Blaramberq rəhbərlik edirdilər. Çar hökuməti tərəfindən Heratı mühasirədə saxlayan şah qoşununun xərclərini ödəmək üçün böyük məbləğdə maliyyə vəsaiti də ayrıldı və bildirildi ki, "qoşunlar Heratı fəth edə bilsələr, Rusiya hökuməti müharibə dövründə Gürcüstanda İran hökumətinə dəymiş ziyana görə ödəməli olduğu təzminatı şah hökumətinə verəcək (Markom K., 2018, s.124). İki ölkə arasında müttəfiq münasibətlərini və Heratın mühasirəsini daha da gücləndirmək məqsədilə 1838-ci ilin aprel ayında qraf Simoniç və Mərkəzi Asiya və Şərq dilləri üzrə ekspert Y.Vitkeviç İrana göndərildi.

Özləri ilə böyük miqdarda silah və ərzaq gətirən Simoniç-Vitkeviç Qabul və Qəndəhara səfərlər təşkil edərək, əfqanları ingilislərə qarşı qaldırmalı idilər. Missiya üzvləri İranda olduqları dövrdə Məhəmməd şaha birbaşa hərbi yardım göstərirdilər. Mühasirə əməliyyatlarına faktiki olaraq Simoniçin özü rəhbərlik edirdi. Vitkeviç Qəndəhar hakimi Kohəndil xanın İranla ingilislərlə müttəfiq münasibətdə olan Kamran Mirzə və vəzir Yar Məhəmməd xana qarşı ittifaq bağlamaq haqqında danışıqlarında iştirak etdi. Onun səyləri ilə Qabul hakimi Dost Məhəmməd və Kohəndil xan arasında Kamran Mirzəyə qarşı yönəlmiş "dostluq müqaviləsi" bağlandı ki, bu, İran tərəfi üçün mühüm addım oldu.

Rus missionerlərinin Əfqanıstandakı addımlarını izləyən Britaniya xüsusi xidmət orqanları 1838-ci ilin oktyabr ayında Rusiyadakı səfiri Klanrikard vasitəsilə Rusiya XİN Nesselrodeyə Simoniçin İrana maddi və mənəvi dəstək verməsindən və Əfqanıstandakı pozuculuq fəaliyyətindən narahatlığını ifadə edən etiraz notası təqdim etdi. 1838-ci ilin iyun ayında Britaniya hökumətinin reaksiyasından narahat olan və onunla birbaşa münaqişəyə getməməyə çalışan çar hökuməti Simoniçi vəzifəsindən azad etdi və geri çağırdı, onun yerinə Madden Tehrana səfir təyin edildi. Vitkeviçin isə pozuculuq əməllərini öz şəxsi iradəsi ilə etdiyi və çar hökumətindən bu haqda heç bir rəsmi tapşırıq almadığı bildirildi (bundan sonra o, intihar etdi) (Markom K., 2018, s.127).

Herat müharibəsi dövründə İran-İngiltərə münasibətləri gərgin və müharibə həddində idi. Britaniya Heratın mühasirəsini Rusiyanın İran vasitəsilə həyata keçirdiyi ekspansionizm aktı kimi qiymətləndirirdi. Herat müharibəsi dövründə şəhərin müdafiəsinə də ingilis kəşfiyyatçı zabiti Eldred Pottincer rəhbərlik edirdi. O, at alverçisi qismində Herata gəlib çıxmış, şəhər hakimi Kamran xanın vəziri Yar Məhəmməd xanla görüşərək, gəlişinin məqsədini izah etməyə nail olmuşdur. Bundan sonra vəzir vasitəsilə Kamran xanla da münasibət qurmuş və hətta sonuncu 1838-ci ilin noyabrında ona əfqan-iranlılar arasında vasitəçilik etməyi də təklif etmişdi (Meyer K.E.; Shareen B.B., 1999, s.70-71). Britaniya hökuməti tərəfindən C.Maknil və E. Pottincer vasitəsilə şəhərin müdafiəsinin gücləndirilməsi üçün əfqanlara böyük dəstək göstərilirdi. Pottincer Herat ordusunu hər cür texniki vasitələrlə təchiz etməklə bərabər, şəhər qalasında müharibə dövrünün qanunlarına uyğun ciddi nizam-intizam yaratmışdı.

Məhəmməd şah Qacarın Heratı mühasirəyə almağından təşvişə düşən Herat hakimi Dost Məhəmməd xan kömək üçün Britaniyaya müraciət etdi. 1829-1830-cu illərdə Ost-Hind şirkətinin nümayəndəsi, kapitan Artur Kanolli Herat və Qəndəhara, 1831-1832-ci illərdə isə Aleksandr Börns

Qabul və Buxaraya göndərildi. Onlara regiona dair mühüm coğrafi, hərbi, topoqrafik məlumatlar toplamaq, habelə Qabul və Buxara sarayları arasında iqtisadi-ticarət və siyasi əlaqələr yaratmaq tapşırığı verilmişdi. 1836-cı A.Börns Pəncab, Sind, Əfqanıstana yeni kəşfiyyat səfərinə göndərildi. 1837-ci ildə A.Börns Hindistan qubernatoruna Dost Məhəmməd xanın rus və farslarla bütün əlaqələri kəsib tamamilə ingilislərin tərəfində olduğunu və buna görə də də ona hər cür maliyyə köməkliyi göstərilməli olduğunu yazırdı. Bu kəşfiyyat səfərlərindən sonra ingilislər artıq Kamran Mirzə və vəziri Yar Məhəmməd xan üzərində də nəzarətə malik idilər və bununla da Herat Orta Asiyada ingilislərin əsas təsir mərkəzi oldu (Bulatov B.B., Salixova D.B., 2006, s.5-6).

Heratın mühasirəsinin davam etdiyi 10 aya yaxın müddət ərzində E.Pottincer əfqan hakimləri ilə şah arasında vasitəçilik edir, bir tərəfdən də İran ordusunun vəziyyəti və əməliyyat planı haqqında məlumatlar əldə etmək məqsədilə Tehrandakı Britaniya hərbi attaşesi, mühasirə dövründə Məhəmməd şahın ordusunda olan ingilis polkovnik Darsi Stoddartla görüşlər keçirirdi; o, Dost Məhəmməd xanın bir neçə dəfə şəhəri təslim etmək qərarına qarşı çıxmış və şah ordusunun mövcud durumunu və uzunmüddətli mühasirəyə duruş gətirə bilməyəcəyini iddia edərək, buna imkan verməmişdi.

Herat müharibəsi zamanı ingilis-rus ziddiyyətlərini kəskinləşdirən məsələ rusların qacarlara, ingilislərin isə Herat əmirinə açıq dəstəyi idi. İngilislər Qacar hökuməti qarşısında Heratın mühasirəsini dayandırmaq, ticarət müqaviləsi imzalamaq, Türkmənçay müqaviləsi ilə Rusiya təbəələrinə verilmiş hüquq və güzəştlərin ingilis tacirlərinə də şamil olunmasını tələbi ilə çıxış etdilər.

1838-ci il aprelin 6-da Britaniyanın fövqəladə səlahiyyətli naziri Con Maknill Herat yaxınlığındakı şahın ordusunun düşərgəsinə daxil oldu. Aprelin 13-də o, şahla görüşərək, Heratın mühasirəsinin İran və İngiltərə hökumətləri arasında bağlanmış 1814-cü il müqaviləsinin şərtlərinə zidd olduğunu və ingilis hökumətinin tərəflər arasında müharibənin dayandırılmasını tələb etmək hüququna malik olduğunu bildirdi. Əslində bu akt özlüyündə elə həmin müqavilənin 9-cu maddəsinin pozulması idi ki, bu maddədə İran və Əfqanıstan arasında müharibə baş verərsə, tərəflərdən hansınınsa istəyi olmadan İngiltərənin müdaxilə etməyəcəyi göstərilirdi (Nəfisi S., 2005, s.682-683).

Maknil tərəflərin barışması üçün vasitəçilik etməkdə israr etsə də, şah bundan imtina etdi. O, bundan sonra - 1838-ci il iyunun 7-də şah ordusunu tərk edərək, Məşhədə getdi və oradan da Tehrana yola düşdü.

Məhəmməd şahı mühasirəni dayandırmaq fikrindən daşındırmağa nail olmayan Britaniya kral hökuməti şahın adına yazdığı məktubda öz sarayında İran şahının nümayəndəsi adına heç kimi qəbul etməyəcəyini və İranla diplomatik münasibətləri kəsdiyini bildirdi.

Maknil hələ Tehran yolunda ikən Londondan ingilis hökumətinin Heratın mühasirəsinin qaldırılmayacağı təqdirdə İrana müharibə elan ediləcəyi haqqında qərarını şah hökumətinə çatdırmaq haqqında əmr aldı. Tehrana gələn Maknil bu ultimatumu şəxsən Məhəmməd şahın özünə çatdırmaq üçün Stoddartı Məhəmməd şahın düşərgəsinə göndərdi. Stoddart hələ təyinat yerinə çatmamış, iyunun 19-da ingilis hərbi gəmiləri Fars körfəzinə daxil olaraq Xarq adasını ələ keçirdilər. Stoddart çatdıqdan sonra şah tərəfindən qəbul edildi, onu son məsələlərdən xəbərdar etdi və hətta daha irəli gedərək, deyilənlərlə razılaşmasa, Xarq adasındakı qoşun hissələrini artıq birbaşa onlara qarşı yönləndirəcəyini bildirdi. İngilislər, həmçinin də aparılan danışıqlar zamanı Qurian qalasının azad edilməsi, ticarət müqaviləsinin imzalanması kimi tələblər də irəli sürdülər.

Şah hökuməti mövcud vəziyyəti nəzərə alaraq tələbləri qəbul etməyə məcbur idi, həm Rusiyadan gözlənilən canlı və hərbi-texniki dəstək alınmamışdı, çünki Rusiya bu dövrdə həm də Dağıstanda müharibə aparırdı və İngiltərə ilə açıq münaqişəyə getmək istəmirdi; digər tərəfdən də Heratı mühasirədə saxlayan İran ordusunda intizamsızlıq hökm sürür, vahid komandanlıq yox idi, habelə İranın bir sıra nazir və yüksək vəzifəli şəxsləri ingilislərlə məxfi əməkdaşlıq edirdilər. İran tarixçisi M.Mahmud bu vəziyyəti belə təsvir edir: „Bu zaman İranda nə siyasətçi vardı, nə də hərbçi. Əsgər çox cəsur və fədakar idi, lakin səlahiyyətsiz idi“ (Mahmud M., 1934, s.381).

Əslində ingilislərin özü də tezliklə mühasirənin qaldırılamsında və İranla münasibətlərin normallaşmasında maraqlı idilər. Çünki bu dövrdə İngiltərə eyni zamanda əfqanlarla da müharibə (1839-1842) aparırdı və hətta əfqanların kütləvi anti-ingilis hərəkatı qarşısında çətin vəziyyətə

düşmüşdü. Belə ki, artıq yuxarıda da qeyd edildiyi kimi 1826-cı ildən başlayaraq Dost Məhəmməd xanın Əfqanıstanı birləşdirmək siyasəti yeritməsi - Müstəqil Qabul knyazlığının möhkəmlənməsi və Dost Məhəmmədin ölkədə təsir dairəsinin genişlənməsi ingilislərin Əfqanıstandakı işğalçı planları ilə üst-üstə düşmürdü. Digər tərəfdən, Dost Məhəmməd xanın həmin dövrdə Rusiya və İranla danışıqlar aparması və onlarla yaxınlaşmaq niyyəti, ümumiyyətlə, İngiltərənin Orta Asiyadakı maraqlarına zidd idi. Odur ki, Ost-Hind şirkəti rəhbərliyinin gündəmində Dost Məhəmmədi devirmək və vaxtilə hakimiyyətdən uzaqlaşdırılaraq, Hindistana sürgün olunmuş əfqan hakimi Şah Şüca Dürranini yenidən hərbi-siyasi səhnəyə gətirmək məsələsi aktual idi. Bu yolda atılan ilk addımlardan biri 1838-ci ilin iyununda Ost-Hind şirkəti rəhbərliyi, Siqx dövləti və Şah Şüca arasında XIX əsrin ilkin "Üçtərəfli müqavilə"sinin imzalanması oldu. Müqaviləyə görə Britaniya və Siqx hökuməti Şah Şücanın Əfqanıstan taxtını ələ keçirməsinə kömək etmək və onun qorunmasına maliyyə vəsaiti ayırmaq haqqında razılığa gəlirlər, Şah Şüca da öz növbəsində öz xarici siyasətində onlarla razılaşdırılmış şəkildə hərəkət etməli idi; o, həmçinin də Siqx hökmdarı Maharac Rancit Siqxin Hind çayının sağ sahilindəki Əfqanıstan əraziləri üzərindəki iddialarını tanıdı. Müqavilənin şərtləri əsasında 1838-ci ilin sonu, 1839-cu ilin əvvəllərində 3 tərəfin birləşmiş qoşunu Bolan keçidi vasitəsilə Əfqanıstanın cənubundan hərəkətə başladılar.

1839-cu ilin aprelində Qəndəhar, avqustunda Qabul tutuldu, Dost Məhəmmədi xan taxtdan əl çəkməyə məcbur edildi. Lakin o , Kohistana çəkilərək, ingilislərə qarşı müqaviməti davam etdirdi. 1840-cı ilin oktyabr-noyabr aylarında tərəflər arasında şiddətli döyüşlər oldu; həlledici döyüş noyabrın 2-də baş verdi. Bu döyüşdə Dost Məhəmmədin ordusu ingilisləri ağır məğlubiyyətə uğratdı. Əfqanların hərbi uğurlarla irəlilədiyi bir vaxtda Dost Məhəmməd xan gözlənilmədən Bala Hisar qalasında olan Hindistan general-qubernatoru Lord Maknotenin yanına gələrək, təslim olduğunu bildirdi. O, Buxaraya sürgün edildi.

Dost Məhəmməd xandan sonra əfqanların anti-ingilis hərəkatı, nəinki səngimədi, əksinə, 1841-ci ilin noyabrından etibarən daha kütləvi xarakter aldı. Dost Məhəmməd xanın oğlu Məhəmməd Əkbər xanın Buxaradan gələrək, rəhbərliyi ələ alması isə müharibənin gedişində vəziyyəti əfqanların xeyrinə dəyişmiş oldu (Kaye C.V., 1851, I cild, s.98).

Artıq əfqanların ingilislərə qarşı müharibəsinin genişlənməsindən narahat olan Lord Maknoten danışıqlara getməyə məcbur oldu. Lakin o, 1841-ci ilin dekabrında tərəflər arasında keçirilən görüşlərin birində Məhəmməd Əkbər xan tərəfindən öldürüldü (Kaye C.V., 1851, I cild, s.148). Onun aradan götürülməsi Britaniya mövqelərinin zəifləməsinə və sonradan geri çəkilməsinə səbəb olan əhəmiyyətli bir dönüş nöqtəsi oldu.

Britaniya təhdidləri qarşısında 1841-ci ilin sentyabr ayında Məhəmməd şahın ordusu Heratın 10 ay sürən mühasirəsini dayandırıb, Məşhədə doğru geri çəkildi. Bundan sonra İngiltərə ilə İran arasında danışıqlar başladı. Nəhayət, 1841-ci ilin oktyabr ayında tərəflər arasında müqavilə imzalandı. Tarixdə "Herat haqqında müqavilə" adı ilə də tanınan bu müqavilənin əsas müddəalarına görə: İran dövləti Herat üzərindəki iddialarından imtina edir və bir daha onun ərazisində hərbi əməliyyatlar aparmamaq, ümumiyyətlə, Əfqanıstanın daxili işlərinə qarışmamaq və yenidən onunla müharibəyə başlamamaq haqqında öhdəlik götürür; Əfqanıstanın müstəqilliyi tanınır –İngiltərə ilə İran arasında dostluq, ticarət və diplomatik münasibətlər bərpa olunurdu. Bu müqaviləni əslində Böyük Britaniyanın İran üzərində iqtisadi və siyasi təsirini gücləndirməklə, İran üçün diplomatik məğlubiyyət, İngiltərə üçün isə strateji qələbə hesab etmək olar – Britaniya, həm də Hindistan istiqamətində təhlükəsizliyi təmin etdi və İranın Əfqanıstan üzərindəki təsirini xeyli azaltdı.

Bu müqavilə ilə bərabər Britaniya və İran arasında Ticarət müqaviləsi də imzalandı ki, bu müqavilə Qacarlar dövründə İran ilə Böyük Britaniya arasında imzalanmış mühüm iqtisadi və diplomatik sənəd olmaqla, XIX əsrin birinci yarısında İngiltərənin Yaxın və Orta Şərqdə öz təsir dairəsini genişləndirməsi siyasətinin bir hissəsi idi. Ticarət müqaviləsinə görə ingilis tacirlərinə İran ərazisində sərbəst ticarət etmək, mallarını idxal və ixrac etmək hüququ verilir; ingilis mallarına tətbiq ediləcək gömrük rüsumlarında güzəştlər tətbiq edilir; İran hökuməti ingilis tacirləri və nümayəndələrinə diplomatik himayədarlıq etmək haqqında öhdəlik götürürdü ki, bu, gələcəkdə

"kapitulyasiya" sisteminə bənzər bir hüquqi imtiyaz forması idi. Müqaviləyə əsasən ingilislər ticarət əməliyyatlarında yeni imtiyazlar aldılar. Müqavilənin şərtlərinə əsasən İngiltərə Təbriz, Tehran və Bəndər-Buşirdə ticarət agentləri saxlamaq hüququ almış oldu ki, bu da, ilk növbədə İngiltərənin müvafiq məlumatlarla təmin edilmək üçün kəşfiyyat xarakterli fəaliyyəti həyata keçirmək məqsədini güdürdü. Müqavilə formal olaraq "hər iki tərəfə faydalı" kimi təqdim olunsa da, əslində məhz İngiltərə üçün üstünlük sayıla bilərdi; belə ki, bundan sonra tədricən İngiltərənin İran üzərində iqtisadi təsirini artıracaq və İranın daxili ticarəti getdikcə İngiltərədən asılı vəziyyətə düşəcəkdi, çünki yerli istehsal məhsulları ingilis malları ilə rəqabət apara bilmirdi. Odur ki, bu müqaviləni sonrakı illərdə İranın iqtisadi asılılığının və yarımmüstəmləkəyə çevrilməsinin başlanğıcı kimi qiymətləndirmək olar.

Müqavilələrin imzalanması ilə tərəflər arasında diplomatik münasibətlər bərpa edildi. Tezliklə ingilislər Xarq adasını da tərk etdilər. Qacarların Herat kampaniyası uğursuzluqla nəticələndi, İran yenə də Əfqanıstanla bağlı planlarını reallaşdıra bilmədi.

Herat məsələsini həll edən və İranla münasibətlərini qaydasına salan Britaniya tezliklə əfqanlarla da sülh bağlamağa çalışırdı. Çünki Ost-Hind qoşunları 1842-ci ildə Əfqanıstanda tarixlərindəki ən ağır hərbi məğlubiyyətlərdən birini yaşadılar və Qabuldan geri çəkilməyə məcbur oldular. Artıq 1842-ci ilin yanvarın 1-də Qabulda əfqanlarla ingilislərlə arasında müqavilə imzalandı. Müqaviləyə görə ingilislər təcili olaraq Əfqanıstandan çıxarılmalı, buradakı qarnizonun bütün hərbi sursatı əfqanlara verilməli idi. Dost Məhəmməd xan Əfqanıstanın qanuni hakimi-əmiri kimi tanınır, Britaniya Əfqanıstanın daxili işlərinə qarışmamağa və müharibə dövründə götürülmüş əsir və girovları geri qaytarmağa dair öhdəlik götürürdü. Tərəflər bundan sonra bir-birinə qarşı münasibətlərdə təcavüzkar addımlardan uzaq olmaq haqqında razılıq əldə etdilər.

**Nəticə**

Əgər Herat müharibəsinin nəticəsi olaraq, Britaniya öz istəyinə - İranın və dolayısı ilə Rusiyanın Əfqanıstanda mövcudluğuna imkan verməmək – çatsa da əfqanlarla müharibənin nəticəsi ingilislər üçün yaxşı olmadı, Əfqanıstan Britaniya ilə Çar Rusiyası arasında bufer dövlət olaraq öz müstəqilliyini saxlaya bildi, Britaniyanın onun daxili işlərinə qarışması imkanları məhdudlaşdı.

Beləliklə, XIX əsrin əvvəllərindən başlayaraq, XX əsrin əvvəllərinə qədərki tarixi dövrü əhatə edən "Böyük oyun" - Böyük Britaniya və Rusiya imperiyaları arasında Mərkəzi Asiya, Hindistan və Əfqanıstan uğrunda aparılan böyük geosiyasi rəqabət idi və bəzi tarixçilərin fikrincə, 1895-ci il sentyabrın 10-da Böyük Britaniya və Rusiya sərhəd məsələlərinin həllini nəzərdə tutan Pamir protokolunun imzalanması, bəzilərinə görə isə 31 avqust 1907-ci ildə İngiltərə-Rusiya Konvensiyasının imzalanması ilə başa çatmışdır.

"Böyük oyun"un gedişində Britaniya və Rusiya arasında ilk böyük toqquşma Herat münaqişəsi oldu. Formal olaraq İran və Herat xanlığı arasında yaranan, həqiqətdə isə rus-ingilis proksi müharibəsi olan Herat münaqişəsi Britaniyanın təzyiqi ilə qacarların müharibəni dayandırıb, geri çəkilməsi, şah hökumətinin öz nüfuzunu və əfqanlar üzərində nəzarətini itirməsi ilə nəticələndi. İranın "Böyük oyun"da iştirak cəhdləri də məhdudlaşmış oldu.

Deyilənləri yekunlaşdıraraq, aşağıdakı nəticəyə gəlmək olar:

1."Böyük oyun"un gedişatında mühüm rol oynayan Herat müharibəsində İranın məğlubiyyəti onu dəstəkləyən Rusiya üçün də Şərq siyasətində uğursuzluq aktı oldu;

2. İran üçün bu uğursuzluq İngiltərədən asılılığı gücləndirdi və sonuncuya qarşı durmaq üçün şimal qonşusu Rusiyaya olan ehtiyacını artırdı;

3. İngilis-əfqan (1839-1842,1878-1880), ingilis-İran müharibəsi (1856-1857) kimi gələcək insidentlərə zəmin yaratdı;

4. "Böyük oyun" fonunda bəhs edilən və xüsusilə sonrakı dövrdə baş verən hadisələr tək regionun deyil, bütövlükdə dünyanın siyasi xəritəsində mühüm dəyişikliklərin baş verməsinə, həmçinin bəzi müasir dövlətlərarası münaqişələrin əsasının qoyulmasına rəvac verdi.

## ƏDƏBİYYAT SİYAHISI


Abbas Amanat. Iran: A modern history. Yale University press. London, 2017.

Arthur Conolly. Journey to the North of India. Overland from England. Through Russia. Persia and Affghaunistaun. London, 1838. In two volumes. Vol. II. https://archive.org/details/in.ernet.dli.2015.164092/page/n3/mode/2up

David Fromkin. The Great Game in Asia. Foreign Affairs. Spring 1980; 58, 004, pg.936-951. https://ru.scribd.com/document/338295581/The-Great-Game-in-Asia?utm_source=chatgpt.com

Dr. Farroux Kaveh. İran at war (1500-1988). UK, Osprey Publishing, 2011.

Edward Ingram. The begining of the Great Game in Asia. 1828-1834. Oksford, 1979. https://archive.org/details/beginningofgreat0000ingr/page/n7/mode/2up

http://dickyricky.com/books/history/Iran%20-%20A%20Modern%20History%20-%20Abbas%20Amanat.pdf

John William Kaye. The history of the war in Afghanistan. In two volumes. 1st volume. London, 1851. https://archive.org/details/in.ernet.dli.2015.502564/page/n3/mode/2up

Karl Ernest Meyer and Shareen Blair Brysac. Tournament of shadows: The Great Game and the race for empire in Central Asia. Washington DC, 1999. https://archive.org/details/dli.pahar.3713/page/n3/mode/2up

Nəcmi N. Abbas Mirzə. XIX əsr Rusiya-İran münasibətləri. Bakı: "Yazıçı", 1993.

Peter Hopkirk. The Great Game: On secret service in High Asia. London, 1990-1991. https://archive.org/details/dli.pahar.3637/page/199/mode/2up

Б.Б.Булатов, Д.Б.Салихов. Русско-английское противостояние в ирано- афганской борьбе за Герат в 1837-1838 гг. Вестник Дагестанского Государственного Университета. Вып. 2006, №3. Səh. 5-13.

Иванов М.С. Очерки истории Ирана. Москва: Издательство МГУ, 1977.

Н.А.Кузнецова. Иран в первой половине XIX века. Москва, «Наука», 1983.

کلمنت مار کام. تاریخ ایران در دوره قاجار. ترجمه : میرزا رحیم فرزانه. تهران، ۲۰۱۸.

Klement Markom. Tarixe İran dər doureye Ğacar. (Qacarlar dövründə İran tarixi). Fars dilinə tərcümə edən Mirzə Rəhim Fərzanə. Tehran, 2018.

محمود محمود. تاریخ روابط سیاسی ایران و انگلیس در قرن نوزدهم میلادی. جلد اول. تهران، ۱۳۵۳.

Mahmud Mahmud. Tarixe rəvabəte siyasiye İran və Engelis dər ğərne nuzdəhome miladi (Miladi XIX əsrdə İran və İngiltərə siyasi münasibətlərinin tarixindən). I cild. Tehran, 1353/1934.

محمد احمد پناهی سمنانی. فتحعلیشاه قاجار. سقوط در کام استعمار. تهران، ۱۳۷۶ .

Məhəmməd Əhməd Pənahi Simnani. Fəth Əli şah Ğacar. Soqut dər kame estemar (Fətəli şah Qacar. Müstəmləkə arzularının süqutu). Tehran, 1376/1957.

محمد علی محمد. تاریخ دیپلماسی ایران.( قبل از هخامنشیان تا پایان قاجاریه). تهران،۱۳۶۱

Məhəmməd Əli Mahmud. Tarixe diplomasiye İran. Ğəbl əz Əhamenişan ta payane Ğacariye (İranın diplomatiya tarixi. Əhəmənilərdən əvvəlki dövrdən Qacarlar dövrünün sonunadək). Tehran, 1361/1941.

سعید نفیسی. تاریخ اجتماعی و سیاسی ایران در دوره ی معاصر. تهران، ۱۳۸۳.

Səid Nəfisi. Tarixe ectemai və siyasiye İran dər doureye moaser (Müasir dövrdə İranın ictimai və siyasi tarixi). Tehran, 1383/1963.